Slovakiyanın Xarici İşlər və Avropa nazirinə Azərbaycanın diplomatik xidmət orqanlarının 100 illiyi medalı təqdim olunub



Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov noyabrın 28-də Slovakiyanın Xarici İşlər və Avropa naziri Miroslav Layçakla görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə ikitərəfli əməkdaşlığın gündəliyində olan məsələlər müzakirə edilib.

Görüşün sonunda nazir Elmar Məmmədyarov slovakiyalı həmkarı M.Layçaka "Azərbaycan diplomatik xidmət orqanlarının 100 illiyi" ilə əlaqədar yubiley medalını təqdim edib.

Slovakiyalı nazir Azərbaycan Respublikasının diplomatik xidmət orqanlarının 100 illik yubileyinə həsr olunmuş Xatirə kitabına öz ürək sözlərini yazıb.

Naqif Həmzəyev: Gənclərimizi ölkəmizin uğurlarına qara eynəkdən baxanlardan qoruyaq

"Bu günün Azərbaycan gəncləri harada, hansı ölkədə yaşamasından asılı olmayaraq dünya xəritəsində yaşanan geosiyasi təlatümləri, regional siyasi dəyişiklikləri diqqətlə izləyirlər. Dünyada baş verən siyasi proseslərə analitik siyasi düşüncə tərzi ilə yanaşan gənclərimiz ölkə Prezidenti İlham Əliyevin yürütdüyü siyasətin alternativsiz olduğunu görür, Azərbaycan dövlətinin daxili və xarici siyasət sahəsindəki uğurlarını, dövlət başçımızın beynəlxalq məsələlərdə tutduğu mövqe və bu istiqamətdə atılan addımları hər zaman dəstəkləyirlər".

Bunu millət vəkili, Yeni Azərbaycan Partiyası (YAP) Gəncə şəhər təşkilatının sədri Naqif Həmzəyev www.yap.org.az saytına açıqlamasında deyib. Millət vəkili təəssüf hissi ilə bildirib ki, internet üzərindən yayımlanan informasiya axınında neqativ hallarla, müharibə, zorakılıq, müxtəlif növ cinayətlərlə bağlı məlumatların geniş yer alması, sosial şəbəkələrdə, şou proqramlarında məişət problemlərinin qabardılması, cəmiyyətin ictimai, sosial və mədəni həyatına geniş şəkildə sirayət etməsi bəzi gənclərin şüuruna mənfi təsir göstərir: *"Hər zaman pusquda duran antimilli qüvvələr isə sosial şəbəkələrin imkanlarından istifadə edərək, Azərbaycanın uğurlarına kölgə salmaq üçün məkrli planlarının reallaşdırılmasında gənclərdən istifadə etməyə cəhd edirlər. İnternet üzərindən dövlətə və xalqa qarşı düşmənçilik, xəyanət, satqınlıq, riyakarlıq dərsi keçən Əli Kərimli, Cəmil Həsənli, Sevinc Osmanqızı kimiləri çirkin məqsədləri naminə Azərbaycan gənclərini düzgün yoldan çəkindirməyə, onları antimilli planlarına alət etməyə çalışırlar".*

"Prezident İlham Əliyev noyabrın 26-da Konqres Mərkəzində Bakı Dövlət Universitetinin 100 illik yubileyi münasibətilə keçirilən mərasimdəki nitqində Azərbaycanda gənclərin tərbiyə işinə yeni müstəvidən yanaşılmasının zəruriliyinə toxunaraq qeyd edib ki, biz ideoloji işə yenidən baxmalıyıq, burada zəifliklər, boşluqlar var. Bizi istəməyən qüvvələr, o cümlədən erməni lobbi qurumları tərəfindən maliyyələşən qurumlar bu boşluqlardan istifadə edirlər, xüsusilə bu gün ki, azad internet mövcuddur. Azərbaycanda internet istifadəçilərinin faiz nisbəti 80-i keçib. Azərbaycanda azad, demokratik cəmiyyət formalaşıb, azad media var. Ona görə istənilən yalanı ortalığa atmaq olar. Ondan sonra bu yalan ətrafında müzakirələr təşkil olunur, bu yalan artıq bir real fakt kimi təqdim edilir və gənclərin beyinlərini zəhərləmək istəyirlər. Biz buna imkan verə bilmərik. Gənclər özləri də bilməlidirlər, tarixi yaxşı bilməlidirlər", - deyə millət vəkili bildirib.

Millət vəkili Azərbaycanın düşmənlərinin niyyətlərinin puç olacağını bildirib: *"Ölkəmizin uğurlarına, atılan addımlara qara eynəkdən baxanlar, düşmən dəyirmanına su tökənlər gəncləri sağlam düşüncədən, real yanaşmadan təcrid etməyə, onların beynini öz çirkin niyyətlərindən irəli gələn əsassız fikirlərlə zəhərləməyə çalışanlar unutmasınlar ki, ölkəmizdə Azərbaycan gənclərinin gələcəyini yüksək səviyyədə qurmaq üçün geniş imkanlar mövcuddur. Gənclərimizi siyasi oyunbazların avantürasından qorumaq hər bir Azərbaycan vətəndaşının əsas vəzifəsi olmalıdır. Azərbaycançılıq ideologiyasına əsaslanan tərbiyədə təkcə təhsil işçiləri, təlim-tərbiyə sahəsində çalışan mütəxəssislər deyil, hər kəs səfərbər olmalıdır. Gəlin ölkəmizin daha da qüdrətli dövlətə çevrilməsi, çiçəklənməsi naminə sabahımız olan gəncliyimizi qoruyaq".*

YAP Səbail rayon təşkilatında gənclərlə görüş keçirilib

Noyabrın 28-də Yeni Azərbaycan Partiyası (YAP) Səbail rayon təşkilatında gənclərlə görüş keçirilib. Milli Məclisin deputatı, YAP Səbail rayon təşkilatının sədri Şəmsəddin Hacıyev Prezident İlham Əliyevin Bakı Dövlət Universitetinin 100 illiyi ilə əlaqədar keçirilən tədbirdə bir çox məsələlərə diqqət çəkdiyini bildirib.

O qeyd edib ki, dövlət başçısının nitqi gənclər üçün proqram xarakterli idi: *"Prezident İlham Əliyev vurğuladı ki, gənclər Azərbaycan tarixini yaxşı bilməlidirlər. Bugünkü inkişafımızın, dövlətçiliyimizin memarının Ümummilli Lider olduğunu unutmamalıdırlar".*

Deputat bildirib ki, Azərbaycan Prezidenti dövlət müstəqilliyimizin əbədi və toxunulmaz olduğunu gənclərin diqqətinə çatdırıb. *"Xaricdəki anti-azərbaycançı qruplardan maliyyələşən şəxslər indi gənclərin beynini zəhərləməyə çalışırlar. Biz xalq olaraq həmişə mənəvi və əxlaqi məsələlərə böyük önəm vermişik. Bizim öz əxlaqi, mənəvi, əsrlərlə formalaşmış dəyər kodekslərimiz var. Azərbaycan dövləti öz dəyərləri üzərində inkişaf yolunu əsas prinsip kimi götürüb. Bu yolda da inamla irəliləyir",* - deyə Ş.Hacıyev qeyd edib.

Onun sözlərinə görə, Prezident bildirib ki, *"dünya birliyinin mütləq əksəriyyətini təşkil edən ölkələr bizə səs verirlər. Necə ki, 8 il bundan əvvəl səs veriblər, biz 155 ölkənin səsi ilə BMT Təhlükəsizlik Şurasına üzv seçilmişik. Özü də necə seçilmişik. İndi diplomatlar bunu yaxşı bilirlər ki, adətən səsvermə bir gün ərzində keçirilir və tez bir zamanda yeni üzvlər seçilir. Bizdə isə bu, üç gün çəkdi. Üç gün, 16 tur. Nəyə görə? Çünki bizə rəqib olan ölkə öz namizədliyini geri götürmürdü. Biz hər bir turda böyük səs fərqi ilə qalib idik, amma lazım olan səsləri yığa bilmirdik. Adətən belə olan halda, səslərdə fərq böyük olanda məğlub ölkə öz namizədliyini geri götürür. O isə götürmürdü. Özü də bizə dost ölkə idi. Təəccüb etdim, bu, nə məsələdir, sonra öyrəndik ki, imkan vermirlər. Bəzi böyük dövlətlər imkan vermir və istəyirdilər ki, bizim üzvlüyümüzün qarşısı alınsın".*

Ş.Hacıyev belə halların ayrı-ayrı dövlətlərin öz maraqlarından qaynaqlandığını bildirib.

Daha sonra çıxış edən gənclər Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətdən danışıblar. Onlar qeyd ediblər ki, Azərbaycanda dövlət tərəfindən gənclərə xüsusi diqqət və qayğı göstərilir.

Sonda Səbail rayon gəncləri adından Prezident İlham Əliyevə müraciət qəbul olunub.

MÜŞFİQƏ

İlham Məmmədov: YAP respublikamızda islahatların uğurla həyata keçirilməsində fəal iştirak edir

"Ölkəmizdə Prezident İlham Əliyevin siyasi iradəsi əsasında həyata keçirilən islahatlar həyatın bütün sahələrini əhatə edir. Aparılan islahatların nəticəsi olaraq respublikamızda perspektiv inkişaf baxımından mühüm əhəmiyyət daşıyan müsbət reallıqlar yaranıb".

Bunu Yeni Azərbaycan Partiyası (YAP) Yevlax rayon təşkilatının sədri, Milli Məclisin deputatı İlham Məmmədov deyib. O, YAP Siyasi Şurasının Azərbaycan parlamentində islahatların davam etdirilməsi ilə bağlı qərarını da məhz bu kontekstdə dəyərləndirdiyini vurğulayıb. Millət vəkili bildirib ki, qanunverici orqanın fəaliyyəti Prezident İlham Əliyevin apardığı məqsədyönlü siyasət sayəsində ölkəmizdə gedən sürətli inkişaf prosesinə adekvat olmalıdır və partiyamızın Siyasi Şurasının qərarı da məhz bu məqsədə xidmət edir. *"Ulu Öndər Heydər Əliyevin qurucusu olduğu YAP müstəqillik illərində Azərbaycanın inamlı inkişafında mühüm rol oynayan güclü siyasi qüvvədir. Partiyamız həmişə vacib məsələləri gündəmə gətirib və onların həllinə nail olub. O cümlədən YAP respublikamızda islahatların uğurla həyata keçirilməsində fəal iştirak edir. Parlamentdə islahatların aparılması da ölkəmizin hazırkı inkişaf mərhələsində meydana çıxan çağırışlardan biridir və mən partiyamızın Siyasi Şurasında qəbul edilən müvafiq qərarı tam dəstəkləyirəm. YAP Sədrinin müavini - İcra katibi Əli Əhmədovun da bildirdiyi kimi, Yeni Azərbaycan Partiyasının üzvləri bu qənaətdədirlər ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar qanunverici hakimiyyət sferasından kənar qalmamalıdır".*

İ.Məmmədov onu da bildirib ki, YAP irəli sürdüyü bütün təşəbbüslərdə bir qayda olaraq dövlətçilik mövqeyindən çıxış edir. *"Partiyanın Siyasi Şurasının məlum qərarı da bu baxımdan istisna deyildir",* - deyə Milli Məclisin deputatı vurğulayıb.

Niderlandda "Bitməyən əzab" sənədli filminin təqdimatı olub

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin hücum diplomatiyası tövsiyəsinə uyğun olaraq, Niderland Krallığında Azərbaycan Respublikası Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası (DK) və Diasporla İş üzrə Dövlət Komitəsinin birgə təşkilatçılığı ilə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi və onun doğurduğu fəsadlar, eləcə də Ermənistanın ölkəmizə qarşı hərbi təcavüzü, dövlət terrorçuluğu və silahlı separatçılıq siyasəti nəticəsində əsir və itkin düşmüş, girov götürülmüş azərbaycanlıların, xüsusilə mülki əhalinin məruz qaldığı etnik təmizləmə, qətliam və soyqırımı faktlarının sənədli materiallar əsasında beynəlxalq aləmə çatdırılması üzrə silsilə tədbirlər keçirilir.

AZƏRTAC xəbər verir ki, tədbirlərdə DK-nın və Müharibə Veteranı Qadınlarına Sosial Yardım İctimai Birliyinin Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə birgə hazırladığı, erməni silahlı birləşmələri tərəfindən azərbaycanlı qadınlara, uşaqlara və qocalara qarşı törədilən ağlasığmaz vəhşilikləri, qətl və işgəncə faktlarını əks etdirən ingilis dilində "Bitməyən əzab" sənədli filminin təqdimatı olub.

Tədbirlərdə ermənilərin müxtəlif dövrlərdə Azərbaycan xalqına qarşı törətdikləri cinayət əməlləri, o cümlədən terror, soyqırımı, vandalizm, əsir və girovlara münasibətdə beynəlxalq hüquq norma və hüquqların pozulması və digər faktları əks etdirən Azərbaycan Respublikası Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqələr Dövlət Komissiyası tərəfindən müxtəlif dillərdə hazırlanmış kitab, broşür, elektron və digər əyani vəsaitlərin sərgisi təşkil edilib.

Rotterdam şəhərində "Marriot-Rotterdam" otelində təşkil olunmuş tədbir Azərbaycan Respublikasının müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş qəhrəman Vətən övladlarının xatirəsinin birdəqiqəlik sükutla yad edilməsi ilə başlanıb. Sonra Azərbaycanın dövlət himni səsləndirilib.

Tədbirdə Niderlandda yaşayan azərbaycanlılar və türklərlə yanaşı, burada fəaliyyət göstərən yəhudi, yunan, Pakistan, Özbəkistan icmalarının, Baltikyanı və digər ölkələrin təmsilçiləri, eləcə də xarici və Azərbaycan kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak ediblər.

"Bitməyən əzab" sənədli filminin təqdimatından əvvəl DK-nın İşçi qrupu rəhbərinin müavini Eldar Səmədov, Diasporla İş üzrə Dövlət Komitəsinin əməkdaşı Aytən Tarverdiyeva, Niderlandda fəaliyyət göstərən diaspor təşkilatlarının rəhbərləri - Benelüks Azərbaycanlıları Konqresinin sədri Elsevər Məmmədov, Avropa Azərbaycanlıları Konqresinin sədri Sahil Qasımov, Niderland-Belçika Azərbaycanlıları Koordinasiya Şurasının əlaqələndiricisi Mayisə Ağamirzəyeva, Müharibə Veteranı Qadınlarına Sosial Yardım İctimai Birliyinin sədri-layihə rəhbəri Rada Abbas çıxış edərək Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tarixi, bu münaqişə nəticəsində torpaqlarımızın işğalı, ölkəmizin məruz qaldığı vandalizm və yandırılmış ərazilər, eləcə də etnik təmizləmə barədə geniş məlumat veriblər. Qeyd ediblər ki, ölkəmizin sülhsevər səylərinə baxmayaraq, Ermənistanın destruktiv mövqeyi münaqişənin həllinə mane olur.

Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş diaspor quruculuğunun dövlətimizin xarici siyasətinin prioritet istiqamətlərindən olduğu diqqətə çatdırılaraq bildirilib ki, Prezident İlham Əliyev bu siyasəti uğurla davam etdirir. Çıxışlarda, həmçinin Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın ölkəmizin son illər əldə etdiyi nailiyyətlərə verdiyi töhfələr vurğulanıb.

Niderland-Türk Federasiyasının rəhbəri Murat Gedik, "Belçika Aydin Haber" informasiya resursunun rəhbəri Cəlil Gündoğdu, Niderland "Sintluca Boxtel" İncəsənət İnstitutunun müəllimi, azərbaycanlı rəssam Rasim Hüseynov və digər iştirakçılar da çıxış edərək Dağlıq Qarabağ münaqişəsi nəticəsində azərbaycanlılara qarşı aparılan işgəncə, qətl və soyqırımı faktlarından, onların doğma yurdlarından qovulmasından söz açıb, bu istiqamətdə məlumatların dünya birliyinin diqqətinə çatdırılması ilə bağlı fəaliyyətə dair fikirlərini bildiriblər.

Qeyd olunub ki, öz doğma torpaqlarından didərgin düşmüş bir milyondan çox azərbaycanlı fundamental insan haqlarından məhrum olub, erməni hərbi təcavüzü nəticəsində beynəlxalq humanitar hüququn norma və prinsipləri kobud şəkildə pozulub, ən çox zorakılığa mülki əhali, xüsusən qadınlar və uşaqlar məruz qalıb. Görünməmiş işgəncələrlə üzləşən qadın, uşaq və qocaların xatirələrinin əbədiləşdirilməsi, müharibə qurbanlarının və şahidlərin özlərinin dili ilə beynəlxalq ictimaiyyətə çatdırılması vacibdir.

Tədbirdə DK-nın arxiv materialları və sənədli faktları əsasında çəkilmiş belə filmlərin daha çox hazırlanması və bütün dünyada yayımlanmasının əhəmiyyətinə toxunulub. Diqqətə çatdırılıb ki, tarix incəsənətin dili, yazılar və filmlər vasitəsi ilə yadda qalacaq, əks təqdirdə unudular. Bu vasitələrlə erməni vəhşiliyi barədə gələcək nəsillərimizi və beynəlxalq ictimaiyyəti məlumatlandırmalıyıq. Azərbaycanlılara qarşı filmdə göstərilən əzab və zülmlərdən dünya insanlığı utanacaq. Azərbaycanlıların üzləşdikləri bu zülm və işgəncələri törədənlər ədalət qarısında mütləq cavab verməlidirlər. Azərbaycanın haqq səsinin bütün dünyaya çatdırılması, xüsusən Niderlandda eşitdirilməsi son dərəcə vacibdir. Çünki fundamental insan hüquqlarının qorunmasının beşiyi hesab edilən, eləcə də Beynəlxalq İnsan Haqları Məhkəməsinin yerləşdiyi Niderlandda belə bir tədbirin keçirilməsi xüsusi əhəmiyyət daşıyır. Bəşəriyyətə, insanlığa qarşı törədilmiş belə vəhşiliklərə göz yummaq olmaz.

Tədbirdə Ümummilli Lider Heydər Əliyevin "Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz tərkib hissəsidir... Azərbaycan öz torpaqlarını nəyin bahasına olursa-olsun azad edəcəkdir" sözləri səsləndirilib.

Sonra "Bitməyən əzab" sənədli filmi nümayiş olunub.

Filmin nümayişi başa çatdıqdan sonra Mayisə Ağamirzəyeva Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2019-cu il oktyabrın 3-də Rusiya Federasiyasının Soçi şəhərində "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyasındakı çıxışında nümayiş etdirdiyi qətiyyətin dünya azərbaycanlılarının böyük məmnunluğu ilə qarşılandığını deyərək xatırladıb ki, dövlətimizin başçısı həmin tədbirdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsindən söz açdı, diqqəti Ermənistanın işğalçılıq siyasətinin nəticələrinə yönəltdi, BMT Təhlükəsizlik Şurasının münaqişənin nizamlanmasına dair qəbul etdiyi dörd qətnamənin 25 ildən bəri yerinə yetirilmədiyini vurğuladı. Silahlı Qüvvələrimizin Ali Baş Komandanının dediyi "Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır. Qarabağ Azərbaycandır və nida işarəsi!" sözləri hamımızın ürəyindən xəbər verir.

Mayisə Ağamirzəyeva vurğulayıb ki, bu qətiyyətli mövqe bütün dünya azərbaycanlıları tərəfindən böyük ruh yüksəkliyi ilə qarşılanıb.

Diasporumuzun üzvləri Azərbaycan Prezidentinin hücum diplomatiyası tövsiyəsini bir daha xatırladaraq, bu istiqamətdə bundan sonra da əzmlə çalışacaqlarını, Azərbaycanın haqq səsinin beynəlxalq aləmə çatdırılması üçün səylərini əsirgəməyəcəklərini, daim müstəqil dövlətimizin və Prezidentin ətrafında sıx birləşəcəklərini bildiriblər.

Qeyd edək ki, Niderlandın Haaqa şəhərində də Azərbaycan Respublikası Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası, Müharibə Veteranı Qadınlarına Sosial Yardım İctimai Birliyi və Haaqada fəaliyyət göstərən "Avrasiya Türk Kadınları Fondu"nun birgə təşkilatçılığı ilə "Bitməyən əzab" filminin təqdimatı keçirilib. Təqdimatda yerli azərbaycanlı və türk icmalarının nümayəndələri iştirak ediblər.

"Avrasiya Türk Kadınları Fondu"nun rəhbəri Fatma Aktaş və DK-nın İşçi qrupu rəhbərinin müavini Eldar Səmədov çıxış edərək Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi barədə ətraflı məlumat verib, Azərbaycan Respublikasının bu problemin həlli ilə bağlı ədalətli mövqeyinin beynəlxalq aləmə çatdırılması istiqamətində həyata keçirdiyi tədbirlər barədə danışıblar. Fatma Aktaş təqdim olunan filmin təbliğat baxımından əhəmiyyətini qeyd edərək, DK-nın və Müharibə Veteranı Qadınlarına Sosial Yardım İctimai Birliyinin bu sahədə fəaliyyətinin təqdirəlayiq olduğunu vurğulayıb. O bildirib ki, "Avrasiya Türk Kadınları Fondu"nun səyləri nəticəsində Dağlıq Qarabağda bitən məşhur "Xarı bülbül" çiçəyi müharibənin qurbanı olmuş Azərbaycan qadınlarının simvolu kimi qəbul olunması məqsədilə Niderlandın aidiyyəti dövlət qurumu tərəfindən patentləşdirilib. Bu simvolu əks etdirən medalyon, yaxa nişanı, geyimlər və digər əyani vəsaitlər beynəlxalq aləmdə nümayiş etdirilərək, qadınların dünyaya ədalətə çağırış səsi kimi müxtəlif tədbirlərdə yayımlanacaq.

Tədbirdə "Bitməyən əzab" filminin digər Avropa ölkələrində də nümayişi təklif olunub, Dağlıq Qarabağ münaqişəsinə dair müxtəlif dillərdə kitablar və disklər iştirakçılara təqdim edilib.